# Dünyanın ən gözəl gözləri



■ Hasan Özkılıç

***Hasan Özkılıç (1951) - İğdırda anadan olub. Bədii yaradıcılığa ötən əsrin 70-ci illərindən başlayıb. İndiyə qədər 6 hekayə, 1 roman kitabı nəşr edilib. "Zahid" adlı ilk romanıyla "Orxan Kamal Roman mükafatı"nı (2013), "Sonunda hər kəs yalnız" hekayə kitabıyla "Antalya Ədəbiyyat Mükafatı"nı və 2015-ci ildə isə "İlin Kitabı" Mükafatını və başqa nüfuzlu ədəbi ödülləri qazanıb. Romanı və hekayələri əsasında filmlər çəkilib. Çağdaş Türkiyə nəsrinin tanınmış və ən çox oxunan müəlliflərindəndir***

Bu gün səhər dan yeri sökülən-də Fayton bazarı duman içində idi, ana. Səhər tezdən açılan çayxanada çay sifariş verdim. Elə bir qurtum almışdım ki, ora sataşdı gözüm: qarşıda, divardan asılan iri güzgüyə. Baxdım, onu gördüm ana, güzgüdə, saçları topuqlarına dəyən Dumanlı qızı. Elə baxırdı ki, mənə... Gözəl idi, çox gözəl. Mənə dedi ki: "Ay oğlan, gəzmə məndən aralı". Güldüm, qurtum-qurtum içdiyim çaydan çıxan buxar nəfəsimə qarışdı.

Fayton bazarı duman içində idi, ana. Güzgüyə baxdım, sonra bayıra - Fayton bazarına, faytonlar dalbadal düzülmüşdülər. Onu gördüm uzaqdan, Əli qardaşımı. Kiminləsə dava edirdi elə bil, əlini, qolunu yelləyir və danışırdı. Durdum ayağa, Dumanlı qızı orda-güzgüdə tək qoyub çıxdım çölə. Çayxana stollarındakı örtüklər, köhnələn masalar, sobada qaynayan çaydanlar, bir də bir tərəfdə qaxılıb oturan kor Baxşı bəy arxamca yetim-yetim baxa-baxa qaldı.

Boya qutum çiynimdə idi, Fayton bazarında fırlandım bir müddət. Əli qardaşımın yanına getdim; faytona söykənib elə indicə yandırdığı siqaretinin tüstüsünü ciyərlərinə çəkirdi

- Nə olub, Əli qardaş?!... Kim əsəbiləşdirib səni? soruşdum, köks ötürdü:

- Yox. Heç kim... Heç kim əsəbiləşdirməyib. - dedi və susdu. Amma onu kimsə əsəbiləşdirmişdi, hər halda belə görünürdü. Görəsən, kim? Danışmaq istəmirdi, mən də çox dirəşmədim, sağollaşıb uzaqlaşdım yanından. Bir az da gəzişdim meydanda, baxdım heç nə alınmayacaq qayıtdım girdim çayxanaya. Gözüm yenə güzgüdə idi; bəzi yerlərində xətləri olan, bəzi yerlərinin şirəsi gedən o uzun, nazik güzgüdə, yenə həmin o səs: "Ay oğlan, gəzmə məndən aralı". Fikir vermədim, Baxşı bəyin yanına getdim. Baxşı bəy orda, kor gözlərini bir nöqtəyə dikib eləcə oturmuşdu. Neçə dəfə məndən onu şəhərdən kənara aparmağımı xahiş etmişdi.

- Sənə ən böyük sirrimi danışacağam. Təkcə sənə. Dünyada heç kimə gümanım qalmadı. - deyirdi həmişə. Dayandım başının üstündə:

- Dur, gedirik. - dedim. Səsimdən tanıdı məni, əsasına söykənib qalxdı. Qoluna girdim, birgə addımlayıb çıxdıq çayxanadan. Fayton bazarı arxada qaldı, şəhərin çuxurunda. Dediyi yerə apardım onu, Baxşı bəyi, o qocaman düzənliyə. Heç nə yox idi, ucsuz-bucaqsız düzəngah... Bir dənə də olsun qaraltı, Allahın bir qulu belə yox idi.

- Gəldik.

Onu çəkib qolundan bir qara daşa sarı apardım:

- Burda, bir daş var, üstündə otur - dedim. Oturdu, əlini cibinə apardı, siqaretini çıxartdı, sonra da alışqanı:

- Sən əvvəlcə yandır görək siqaretimi - dedi.Yandırdım, sümürdü.

-İndi isə qulaq as, - dedi. Susdu, bir müddət dayandı, kör gözlərini bir nöqtəyə dikib eləcə baxdı: - Bulağın yerini tapmalıyıq, kisələrimin yerini. Gizlətmişdim. Heç kimin tapa bilməyəcəyi bir yerdə basdırdım pul dolu kisələrimi... Sonra da... Sonra üstünə...



Nə edib bilirsənmi, ana? Dayan danışım. Basdırıb pul dolu kisəsini, sonra da üstünə oturub... Necə yəni oturub? Başa düşmədin?!Yəni, açıq aşkar deyim neylədiyini? Nişan qoyub da, nişan, indi başa düşdün? Başa düşmədin? Məni hirsləndirmək üçün belə edirsən, deyəsən? Boş yerə vaxt itirirsən, nə edirsən et, əsəbiləşməyəcəyəm, özümdən çıxmayacağam... Neçə gündür onu düşünürəm, Baxşı bəyi. Bilirdim, başına çox iş gəlib, danışmaq istəyirdi mənə. Danışacaqdı da. Çıxarmalı idim onu çayxanadan bayıra... Eləmə də belə!.. Qulaq as, sonra sualların ver. İstəyirsən ki, danışım, onda sual vermə!... İmkan ver. Söz ver... Yaxşı, onda, danışıram... Kor olmamışdan əvvəl olub bu hadisə. Nişan qoyubmuş ki, sonradan axtaranda tapsın... Sən bunları bilmirsən, axı onun nələr yaşadığını bilmirsən elə deyil?!.. Qulaq as, sən də çox kədərlənəcəksən... Danışıram! Dedi ki: "Pullarımı basdırdım, yerini itirməyim deyə üstünə nəsə bir işarə qoymalı idim. Qoydum da. Başqa çarəm yox idi. Xeyli qaçaq-quldur düşmüşdü dalımca. Pulumun yerini öyrənməyə çalışırdılar. Tapsaydılar, pulumu alıb məni də öldürəcəkdilər. Bilirdim, planlarını. İçlərindən bir nəfər, daha mərhəmətli olan birisi gəlib mənə xəbər verdi. "Pulunu alandan sonra səni öldürəcəklər" - dedi. O vaxt düşündüm, ağlıma bu yol gəldi. Basdırdım torpağa, üstünə də əməll-başlı oturdum" dedi. Hə, axır ki, başa düşdün. Ay sağ ol! Gülmə!.. Nə etməli idi, yazıq?! Heç kimi olmayan, yetimin biri. Kimin yanına gedəydi, kimə sığınaydı? Anası da olmayıb heç!.. Mənim var. Sən varsan. Yaxşı, dayan, qucaqlama, burax nəfəsim kəsildi, dayan da, qoy danışım... Sonra dedi ki: "Çox axtardılar, çox üstümə düşdülər, ancaq tapa bilmədilər kisələrimi".

Mənə bunları danışdı Baxşı Bəy, qız güzgüdə qaldı. Ürəyim ağrıdı. Az qalsın ağlayacaqdım. Bax, o zaman Baxşı bəyə baxıb:

- Dayan, mən də sənə bir şeir oxuyum Bərəxud səhrasından. Bu şeir elə sənin kimi bəxtiqaralar, sənin kimi çöllərə düşənlər haqqındadır... Susuz qalanlardan sənin kimi... Qulaq as - dedim.

*Susdu, oxudum...*
*Şam söndü!*
*Məşədini gördülər yuxularında*
*Ayaqyalın, başıaçıq, tumançaq*
*Şam söndü!*
*Bərəxud səhrası soyuq*
*Bərəxud səhrası səssiz*
*Şam söndü!*
*Orda gördülər Məşədini,*
*Üfüqlərə sarı qaçırdı*
*Ayağıyalın, çılpaq, tumançaq,*
*səhranın qızılında..."*

Baxşı bəy kor gözləri ilə uzaqlara baxdı, elə baxdı ki, ana, sanki Bərəxud səhrasında özünü gördü, eləcə baxdı, ah çəkdi. Gözlədim ki, bəlkə danışar, nəsə deyər, danışmadı. Ona deyə bilmədim, "bu danışdığım sən deyilsən, Baxşı bəy, sən deyilsən" - deyə bilmədim... Anam danışdı, bir nəfərdən danışdı... O kişi kim idi? Bərəxud səhrasındakı kişi? Atam idi bəlkə? Niyə Bərəxud səhrasına gedib çıxıb axı? Niyə elə çılpaq, ayağıyalın, tumançaq? Niyə?.. Niyə sən atamı ora apardın? Cəzasını çəksin deyəmi? Səni tərk edib Səhra qızı ilə getdiyi üçün bəlkə? Nə vaxt mənə düzünü danışacaqsan? Dayan, ondan danışırdım da, Baxşı bəydən. Dedim axı, kor gözləri uzaqlara zilləndi. Sonra ikicə damcı yaş axdı gözündən, axıb burnunun ucundan yerə düşdü. Sadəcə iki damcı. "Nə olub, niyə ağlayırsan?" - deyə soruşdum Baxşı bəydən. Cavab vermədi, gözləri daldı yenə... Şəhərin kənarında idik, qışın soyuğunda; şaxtada, çılpaq ağaclar, suyu çəkilən torpaqlar üşüyürdü. Uzaqlar, onun baxdığı, ucsuz-bucaqsız düzənliklər dumanın içində itib getmişdi. Mən bunları düşünürdüm, yenə onun kədərli səsi ilə özümə gəldim. Bax, onda danışdı "Saatlı Günlər"indən kor gözləri ilə eləcə baxa-baxa... Sanki o an iki qolunda, dirsəyinə kimi düzülən saatları ilə Bərəxud səhrasında qaçaraq gedən Baxşı bəydi. Amma o, mənə bundan, gedişindən deyil, sal daşdan hörülən, divarlarını yosun tutan o şəhərdən danışdı... Küçələri at təzəkləri ilə dolu olan; qarğaların, sərçələrin, sağsağanların, sığırçınların buxarı çıxan arpa dənəli təzəklərin üstündə eşələndiyi o qədim şəhərdən... Sonra da, "Dayan e, dayan! Əslində, mən özümdən, "Saatlı günləri"mdən danışacaqdım sənə, az qalsın unudacaqdım," - dedi, danışmağa başladı. O qədər gözəl danışdı ki, ana, bir az keçəndən sonra elə bildim danışdığı mənəm; mən yaşamışam o yaşadıqlarını, nəfəsim kəsilənə kimi qulaq asdım ona...

Fayton bazarından bir az qabaqda, əvvəllər rus konsulluğunun yerləşdiyi o böyük prospekdə, qara ağacların altında qurarmış saat dəzgahını. Rus konsulluğunun yerləşdiyi bu prospekt, o vaxtlar camaatın ən çox qorxduğu yer imiş. Yolu burdan keçənlər konsulluğa baxmağa çəkinərmiş. Sağa-sola baxmadan, çox da dayanmadan qaçaraq addımlarla uzaqlaşırmışlar bu prospektdən. Çünki o vaxtlar konsulluğun ətrafında çox gəzişənlər bir gün itirmiş, yox olurmuş. Bu prospektdə çox görünənin, bina ilə bir az çox maraqlananın elə ərazidən bir balaca uzaqlaşan kimi bir neçə nəfər girərmiş qoluna, "Gəl, görək, - deyirmişlər - sənin nə işin var burda?" Vəssalam, gedirmiş gedərgəlməzə... Necə olduqlarından, hara getdiklərindən heç kimin xəbəri olmurmuş. Təkcə Baxşı bəy qorxmurmuş. Hətta konsulluqda çalışan "dəmir pərdə"nin adamlarına da saat satırmış. Qol saatından başqa onsuz da başqa saat satmırmış. Çünkü həm saat satdığı yer balaca imiş, həm də qol saatlarına həvəsli imiş Baxşı bəy. Əlindən "min cür" saat gəlib keçib indiyə kimi. Məhz elə bu cür də deyir, ana: "min cür". Hər birinin səsinin ayrı gözəlliyi var. Dəqiq işləyən, dərinliklərdən gələn cürbəcür səsləri ilə insanı keçmişə aparan bu saatları o qədər çox sevirmiş ki, onlarla yatıb durarmış. İki-üç gündən bir sərhədi keçib gedir, heç kimin bilmədiyi, görmədiyi yeni dəbdə olan saatlarla geri qayıdırmış konsulluğun qarşısına.

*(Davamı səhifə 17-də)*

# Dünyanın ən gözəl gözləri

*(Əvvəli səhifə 16-da)*

Sərhəddən hər qayıdanda, konsulluqdan, kostyumlu iki nəfər gəlib guya saat almaq məqsədi ilə onun gətirdiklərinə baxırmışlar. Sərhədi keçib getdiyi şəhərin adı da Saatlar şəhəri imiş. Dünyanın ən bahalı saatçıları, saata vurğunları, saatla yatıb saatla duranları bu şəhərə gəlirlərmiş. Min cür saat gələrmiş buraya, yenə bu şəhərdən, dünyanın hər yerinə çantalarla min cür saat aparılırmış.

Yenə eyni adi günlərin birində bir kişi, arxasında çarşaba bürünmüş bir qadınla gəlib Baxşı bəyin saatlarının qarşısında dayanıb, saatlara baxıb. Kişi qadın üçün saat almaq istəyib:

- Ən bahalı, ən gözəl qadın saatlarını göstər.

Baxşı bəy üç dənə saat çıxarıb, dəzgahın üstünə qoyub:

- Bunlar dünyanın ən gözəl, ən bahalı qadın saatlarıdır, - deyib - Bunlardan bu şəhərdə, sərhədin bu tərəfində, məndən başqa heç bir saatçıda tapa bilməzsiniz. Bu saatlardan dünyada təkcə üç saatçıda üç ədəd var. Digər ikisinin harda satıldığını mən də bilmirəm. Onların yerini ancaq Saat Şəhərində, "Min cür" saat pasajında, "Min cür saat" dükanının sahibi Mirzəli bəydən öyrənə bilərsiniz.

Kişi qadına baxıb:

- Bax, bəyən, hansını istəyirsənsə alacağam - deyib.

Qadın kişinin arxasında heykəl kimi dayanıbmış. Kişi "bəyən" - deyə israr edəndə çarşabı üzündən çəkib bir balaca, əyilib, saatlara baxmağa başlayanda Baxşı bəy görüb qadının gözlərini. Bax, onda ürəyi qəfəsdəki bir quşun ürəyi kimi çırpınıb:

Bu qədər şəhər gəzdim, bu qədər diyar dolaşdım, belə gözəl gözləri dünyanın heç bir yerində görmədim - dedi mənə. Qadın saatların birini çıxarıb, o birini taxıb qoluna. O gözəl gözləri ilə bir saatlara, bir də Baxşı bəyə baxıb:

- Bəyənmədim. Mənim taxacağım saat burda yoxdur - deyib. Elə bir baxışla baxıb ki, Baxşı bəyin dizləri bükülüb. Elə-belə də dedi, ana, "Dizlərim büküldü!" - dedi. Çevrilib gedəndə, arxalarınca qışqırıb Baxşı bəy:

- Dayanın!

Kişi ilə qadın dayanıblar.

- Sabah təqribən bu radələrdə gəlin, bu gecə sərhədi keçib dünyanın ən gözəl saatlarını, bunlardan da gözəllərini gətirəcəyəm sizin üçün. Sabah gəlin! - deyib.

Beləcə başlayıb hər şey, ana, Baxşı bəyin sevdasını və həyatını çürüdüb. Bu sözü də o, özü dedi, "Həyatımı çürütdü," - dedi. O gecə sərhədi qan-tər içində keçib. Səhər, Saat pasajının qapıları hələ açılmamış orda olub. Ən gözəl saatlarını seçib, qayıdıb. Günortadan sonra, qadınla kişinin ona doğru gəldiklərini görəndə, yenə dizləri bükülüb.

Qadın gəlib, saatları bir bir qoluna taxıb, "dünyanın ən gözəl gözləri" ilə baxıb Baxşı bəyə:

- Bəyənmədim - deyib, qoyub saatları dəzgahın üstünə qayıdıb kişi ilə bir yerdə uzaqlaşanda, "Dayanın! - deyə qışqırıb yenə arxalarınca Baxşı bəy:

Sabah elə bu vaxtlar gəlin, təzə saatlarım olacaq.

Qadın başqa cür baxıb Baxşı bəyin üzünə, elə bil ona bunları demək istəyirmiş:

Boşuna çırpınırsan, vallah, boşuna! Mən səni başa düşdüm. Sən mənim bəyənəcəyim saatı heç vaxt tapıb gətirə bilməyəcəksən. Bax, bu gözlərimin içinə! Bilirsən, bu gözlər necə canlar alıb, boşuna vaxt itirirsən... Axırın yaxşı olmayacaq - deyirmiş kimi baxıb. Yanındaki gombul, qısaboylu, eybəcər kişi isə:

- Gələcəyik - deyib və çıxıb gediblər.

Görürsən, nə deyib ana, "Axırın yaxşı olmayacaq." - deyib. Deməyib? Necə yəni, deyib axı!.. Baxşı bəy elə başa düşüb? Nə isə, o gündən sonra Baxşı bəyin həyatı çox dəyişib. Günləri qadını gözləməklə, onu bir daha görməyin həyəcanı ilə, həm çox sevinclə, həm də onun saat bəyənməməsinin kədəriylə keçib. Bu nə qədər müddət belə davam edib, neçə dəfə sərhədi həyəcanla, qorxa-qorxa keçib, neçə dəfə gözlərinin içinə baxanda dizləri bükülüb, yadına gəlmir, ana. Günlər keçib, Saatlar şəhərinin yollarında gedib gəldikcə bu həyəcana öyrəşib Baxşı bəy. Artıq elə bil hala gəlib ki, qadın saatlara baxanda ürəyində, "inşallah bəyənməz" - deyirmiş hər dəfə - Bəyənməz və sabah da yenə gələr. Yenə gələr və mən də o gözlərə, o içimi yandırıb yaxan, dizlərimi bükən o gözlərə bir də baxaram. Onu, ərdamını, gözəlliyini bir də görərəm".

Amma bir məsələ var ki, işlər onun düşündüyü kimi getməyib. Hər gün dəzgahındakı saatlar daha da azalıb. Onsuz da gedib-gəldiyi yollarda, qaldığı mehmanxanalarda o qədər pul xərcləyirmiş ki, o pulları qazanmaq mümkün deyilmiş. Sonra, yenə getmək, dünyanın ən bahalı, ən gözəl saatlarından heç olmasa bir-iki dənəsini alıb qadına təqdim etmək üçün əlindəki saatları dəyər dəyməzinə satmağa başlayıb. Beləliklə, xərcləyib əlindəki pulları. Qadınla kişi sonuncu dəfə gələndə Baxşı bəy məhv olub. Özü elə deyir bunu: "O gün məhv oldum". Qadın gəlib, bu dəfə də bəyəndiyi saatı tapa bilməyəndə, Baxşı bəyə zavallı gözlərlə, hər şeyini itirmiş, bitmiş bir insana baxırmış kimi baxıb; daha sonra da heç nə demədən kişi ilə bir yerdə çıxıb gediblər.

O gündən sonra qadınla kişini bir daha görən olmayıb. Araşdırıb, soruşub hardan gəldiklərini, harda yaşadıqlarını, heç kim tanımayıb, heç kim bilməyib. Sanki nə onlar bu şəhərə gəliblər, burda yaşayıblar, nə də bu boyda şəhərdə kimsə onları görüb. Bir sirr kimi yox olublar. "Bəlkə də - deyib öz-özünə - kişi ilə qadın buraya, rus konsulluğunun qabağına çox gəlib getdiklərinə görə onların da axırı digərlərinki kimi olub. Bəlkə də sonuncu dəfə gələndə tutublar qollarından aparıblar onları?" Sonra prospektdəki konsulluğun qapısını müşahidə edib günlərlə; bəlkə ordan çıxarlar, görər deyə. Amma yox, ordan da çıxmayıblar.

Məhz o gündən sonra Baxşı bəy dəli-divanə kimi qollarına taxdığı ucuz saatlarla şəhərdə gəzməyə başlayıb. Niyə? Çünki artıq satışa qoyacaq qədər saatı yox imiş. Əlində qalan ucuz saatlarını iki qoluna taxıb düşüb yollara. Bir o qadın, bir də dünyanın ən gözəl gözləri dediyi qadının gözləri yadından heç çıxmayıb... Dəli-divanə kimi gəzib o qadını axtarıb gözləri. Bəzən uzaqdan ona bənzətdiyinə görə bir qadının dalınca düşüb. Sərgərdan gəzdiyi küçələrdə, bir gün, şəhərin daş divarlarının arxasından çıxan adamlar üstünə düşüb, həm döyüblər onu, həm də pulunu alıblar əlindən. Onlardan xilas olmaq haqqında düşünəndə birdən ağlına belə bir fikir gəlib. Özü-özünə deyib ki, "Ən yaxşısı şəhərdən kənara çıxım. Heç kim görmədən orada, boş arazilərdə gizlədərəm pullarımı. Qismət olsa, bir gün ortaya çıxsa, onu görən kimi, qaçıb gedib götürərəm pullarımı. Bəlkə yenə saat istəyər, yenə gözlərim yolda qalar. Sərhədi keçib, o işıqlı şəhərdə, o qədər saatın içində, onun bəyənəcəyi saatları axtara-axtara, onun gözlərini düşünər, o gözlərdə itib gedərəm".

O gündən sonra yığdığı pulları, gizlicə gedib torpağa basdırıb. Axtaranda yerini rahatca tapmaq üçün isə nişan qoyub üstünə.

Beləcə, onlarla yerdə pulları basdırıb, onlarla yerin üstünə oturub. Qış gəlib, qar yağıb, sel gəlib; bahar olub, tarlalar əkilib, "birdən gələr" - deyə pullarını torpağın altından çıxarmağı qərara alıb. Bir gün səhər çıxıb Fayton bazarından, atlar qoşqularının içində sakit, səssiz, istilərin düşməsini gözləyirmiş; çıxıb şəhərdən kənara, düşüb tarlaların canına. Əlini gözlərinin üstünə qoyub baxıb göz işlədikcə uzanıb gedən düzənliyə. Bilirsən, nə görüb? Dayan, o dəqiqə "nə?" - deyə soruşma, danışacağam. Keçən dəfə Baxşı bəyin gözlərinin niyə kor olduğunu soruşurdun da, ana?! İndi biləcəksən, niyə kor olduğunu, dayan! Baxıb görüb ki, qoyduğu işarələrin heç biri yoxdur. Eşidirsən, ana, heç biri də yoxdur. Yoxdur da, yoxdur!.. Dəli olub. Özün fikirləş, birdən dünyanın ən gözəl gözlü qadını gəlsə?!.. "Get, mənim üçün dünyanın ən gözəl saatını gətir" - desə?... Nə etməlidir, Baxşı bəy?... De görüm, nə etməlidir?.. Bilmirsən?.. Hardan biləcəksən?!... Onun yaşadıqlarını yaşamadan bilmək olmaz heç nəyi... Bilmək üçün gözlərindən keçməlidir adam, ana!.. Mən?.. Nə mən? Hə, mən olsaydım, nə edərdim?.. Gözlərimdən keçərdim... O saatı gedib ala bilmək üçün... Dayan, qucaqlama!.. Soruşdun, mən də dedim... Üzülərsən?.. Başıma gəlsə, görərsən necə olur!.. Dayan, yaxşı ondan danışım, Baxşı bəydən, nə etdiyindən... Nə edib bilirsən? Gecə-gündüz dəmədən, dizin-dizin sürünərək, torpağı qarış-qarış edərək axtarıb pullarını. Həm axtarıb, həm də ağlayıb... Axtardıqca, ağladıqca dünyanın ən gözəl gözlü qadını ona tamaşa edirmiş. Yazığı gəlib Baxşı bəyə, o da həmin baxışlardan utanıb özünə gizlənməyə yer axtarıb. Amma yenə də axtarıb, qazdığı torpağı qayıdıb bir də təzədən qazıb. Mənə:

- Bax!.. - dedi - Bu torpaqları, ona dünyanın ən gözəl saatını almaq üçün qaza-qaza gözlərim kor oldu. Mən tapa bilmədim. İndi sən də bax, yaxşı-yaxşı axtar, çoxu bu tərəfdədi, o biri tərəfdə də var, bir də o Xanbabanın bağındadır pullarım.

Göstərdiyi yerləri qazdım ana, axtardım. O, hər dəfə başqa yeri göstərdi:

- Buradır, buradır, dayan tapdım. İndi xatırladım, buranı qaz!

Mən də səhərdən axşama kimi torpağı qazdım.

- Ora deyil, yox, budur buradır, yox, bura da deyil oradır... Yanında qara bir daş var idi, hardasa buralarda idi. Yox, bu tərəfə gəl! - deyə deyə o soyuqda, o şaxtada mənə bütün düzənliyi qazdırdı. Dediyi yerləri qazdım, torpağı aşsüzənə çevirdim; bir dənəsnin də, sadəcə bircə dənəsinin də izinə rast gəlmədim. Qaranlıq düşdü, göz gözü görmədi.

- Durun gedək, Baxşı bəy, axşam oldu, günəş batdı. Yoxdu da, burda pul kisəsi-zad yoxdur - dedim.

- Hə, deməli, günəş batdı? Deməli, axşam düşdü, biz isə yenə də tapa bilmədik. Yaxşı, gedək. - dedi təəssüflə. Qoluna girdim, yeridik bir xeyli. Şəhərə girəndə qəfil sürətlə addımlamağa başladı. Nə düşünmüşdü, düzü, bilmirəm, amma birdən-birə canlanmışdı. Sonra mənə baxdı:

- Sabah, sabah!.. Sabah yenə gedək! Yatmayacağam bu gecə. Onu, gözlərini... oranı, basdırdığım yerləri yadıma salmağa çalışacağam. Sabah yenə gedək! Tapacağıq pullarımızı. Mütləq tapacağıq! - dedi, daha da yeyinlətdi addımlarını, artıq ona çata bilmirdim.

- Dayan. Bir az yavaşla, Baxşı bəy! Çox yeyin gedirsən - dedim, yavaşladı. Yeridik, Fayton bazarına girdik. Faytonların yeri boş idi. Çayxana bağlanmışdı. Qarğalar atların təzəyinin üstündə əlləşirdilər.

Baxşı bəyə heç nə demədim, söz verdiyim səhərə görə, ana. Neyləyim mən indi? "Gəl" deyir, - tapacağıq pullarımı". Ancaq ana, məncə, orda, o torpaqda nəsə var, nədir bax onu bilmirəm. Bəlkə də torpaq zəhərlidir. Bunu hardansa eşitmişdim, bəzi yerlərdə torpaq zəhərli olurmuş. Axşam ordan ayrılanda, gözlərim yanırdı, içinə elə bil qor doldurmuşdular. Bəlkə də torpaq zəhərli olduğundan gözləri kor oldu Baxşı bəyin, kim bilir?! Gecə-gündüz o torpağa dikdi gözlərini, həm qazdı, həm ağladı. Buna göz dözər? Zəhərləndi... Getməyim? Deyirsən, birdən mən də kor olaram? Yaxşı, getmərəm... Sabah çayxanada çayımı içib çıxmamışdan əvvəl güzgüdəki qızla danışacağam. Ona Bərəxud səhrasını oxuyacağam. Yox, qorxma! Dalınca getməyəcəyəm, yox, Bərəxud səhrasına keçməyəcəyəm. Yaxşı, narahat olma. O, hey çağırır məni, ana.

- Gəl! - deyir. - Bərəxud səhrasına gəl. Mənimlə gəl! - deyir. Getmərəm... Bilirəm, getsəm səhrada yolumu azacağam. Ancaq qız çox gözəldir, ana. Bəzən özümü güclə saxlayıram... Atam Bərəxud səhrasına gedib, ana? Mənə düzünü de! Bərəxud səhrası deyilən yer həqiqətən var, yəni? Var?.. Necə yerdir, görəsən? Atam Atam getdi və gəlmədi, başa düşdüm Getdi, gəlmədi. Bu beyti də sən yazdın onun üçün, elə deyil? İnkar etmə, sən yazdın, bilirəm. Atamı Bərəxud səhrasında gördün, o qadının arxasınca gedirdi... Yuxunda görmüşdün? Ayaqyalın, başıaçıq, tumançaq, hə? Yəni, pis vəziyyətdə, səhrada çılpaq, elə deyil? Onu belə görürsən, pərişan halda... Mən getmirəm, anacan, şəhərin küçələrində gəzəcəyəm, boya qutum çiynimdə, bəlkə də o qızı görəcəyəm... Qarşıdakı səkidən gələcək, uzaqdan. Məni səhraya çağıracaq. "Gəl!" - deyəcək yenə. "Bərəxud səhrasına gəl " - deyəcək. Necə deyirdin, ana?.. Şam söndü!

**Türkiyə türkcəsindən uyğunlaşdıran: Oqtay Hacımusalı**